BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2010*

# ERMƏNİLƏRİN MƏNŞƏYİ VƏ TARİXİNƏ DAİR

**S.M.SEYİDOVA**
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***Seyidova@mail.ru***

*Əsrlər boyu ermənilər özlərini Qafqazın ən qədim xalqları sırasına aid edərək, Azərbaycan torpaqlarına daim iddialar irəli sürmüşlər. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlanandan ermənilər bu məsələni daha qabarıq şəkildə dünya ictimaiyyətinə çatdıraraq, Azərbaycan ərazisində törətdikləri cinayətlərə haqq qazandırmağa çalışırlar. Buna görə də, ermənilərin mənşəyi və tarixini mənbələr və tarixi faklar əsasında araşdırmaq aktuallıq kəsb edir.*

Xalqların öz tarixini qələmə alması insan cəmiyyətinin ən mühüm nailiyyətlərindən biridir və hər bir xalq tarixini yazarkən istər yerli, istərsə də xarici dillərdə mövcud olan yazılı mənbələrdən istifadə edir. Erməni xalqına gəldikdə isə, bu xalq tarixini yazarkən digər xalqlara aid faktlardan nəinki istifadə edib, hətta onları «özününküləşdirib». Tarixci N.Krayblisə görə Asiyanın tarixi kimi Erməni tarixi də müəmmalar içərisindədir (4, 136).

Tarixi gerçəkliyi tapmaq üçün erməni tarixi ilə bağlı mənbələrə nəzər salaq. Ermənilərin mənşəyi məsələsini tədqiq edən bir sıra tarixçilər təhriflərə yol vermişlər. Erməni tarixinin atası sayılan M.Xorenatsiya əsasən Nuhun oğlu Yafəsin oğul və nəvə nəticələrindən olan Homer, Aşkenaz, Rifat, Toqarma və Hayk ermənilərin əcdadları sayıla bilər (14, 5-6). Alban tarixçisi Musa Kalankatuklunun «Albaniya tarixi» əsərində Homer hamirlərin (kimmerlər) Aşkenaz sarmatların, Rifat – savromatlar və yalnız Toqapma (əsərdə Foqarma) ermənilərin əcdadı kimi göstərilir. Əsərdə göstərilən Homer, Aşkenaz qədim kimmerlər və skiflərin mənbələrindəki adlarından biridir ki, onlar da, fikrimizcə, qədim türk tayfalarıdır (1, 14-15). Erməni tarixiçilərinin içərisində məsələnin bu şəkildə qoyulmasının əleyhinə çıxanlar da vardır. Məsələn D.Dagavaryan istər Aşkenaz, istərsə də Toqarmanın erməni xalqına yad olduğunu və qədim erməni müəlliflərinin səhvən ermənilərin əcdadlarını Nuhun nəsli ilə bağladığını göstərmişdi (3, 16).

Beləliklə, eramızdan əvvəl II minillikdə Erməni yaylasına gələn tayfaların hind - avropa tayfalarına mənsub olduğunu göstərən tədqiqatçı onlara konkret etnik ad vermir və «Ermənistan» terminini sırf coğrafi termin kimi işlədir.

Antik yunan tarixçisi olan Herodotun «Tarix» əsərində «ermənilər» və «Ermənistan» (Armina) haqqında məlumatları çox səthidir. O, yazır: «Makedoniyalıların sözlərinə görə friqlər hələ Avropada (Makedoniyada) yaşadıqları müddətdə öz qonşuları tərəfindən friq adlandırılırdılar» (7, 182). Herodot friqlərın pafloqoniyalı kimi geyindiklərini və Kiçik Asiyaya köçdükdən sonra isə adlarını dəyişdiklərini göstərmişdir. O, friqlərın Ermənistanın yerli əhalisinə qarışaraq, İran şahı Daranın kürəkəni

Artoçmesin ordusunda xidmət etdiklərini yazır. Herodotun məlumatına əsaslanan tarixçilər ermənilərin Kiçik Asiyaya gəlişini e.ə.515-ci ilə aid edirlər. Həmçinin, «Erməni» termininə ilk dəfə olaraq Əhəməni şahı Daranın Bisütun qayasındakı yazılarında rast gəlinir. Tarixçilər bu yazıların da e.ə. 515-ci ilə aid olduğunu guman edirlər. Yazılarda Əhəmənilərə qarşı üsyan etmiş vilayətlərin içəriçində «Armenia» ya da rast gəlinir.

Erməni tarixçisi S.Ayvazyan Ermənistan ərazisində aşkar edilən, Azərbaycan-Atabəylər dövlətinə (XII-XIII əsrlər) aid olan sikkələrin üzərindəki yazıları soldan sağa oxuyaraq onları e.ə. XIX əsrə aid hayas sikkələri, ərəbdilli yazını isə hayas yazısı adlandırmışdı. O, həmçinin Metsamor ərazisində aşkar edilən qayaüstü və qəbirüstü ərəbdilli-kufi yazılarını soldan sağa oxuyaraq, fantastik nəticələr əldə etmişdir. «Əli» adını «məbəd, varlı ev», yaxud «od evi» kimi, «Həsən» adını isə «varlı» kimi oxumuşdur. S.Ayvazyanın bu əfsanəvi nəticələrini tarixçi alim, akademik V.Piatrovski ifşa edərək, göstərmişdir ki, bu cür üzdəniraq, savadsız «nəzəriyyəçilər» erməni tarix elminə böyük zərbə vura bilərlər (8).

Yuxarıda adları çəkilən erməni mənbələrindən göründüyü kimi, ermənilər qonşu dövlətlərin ərazisini, hətta abidələrini belə «özlərininki» hesab etmişlər.

1951-ci ildə çap edilmiş «Erməni xalqının tarixi»ndə e.ə. XV əsrdə Hayasa-Azzi ölkəsində (Yuxarı Fərat vadisində) hay tayfa ittifaqının mövcud olması haqqında məlumat verilir (5, 16-25).Hett dövlətinin süqutundan sonra onların müstəqillik qazanması, lakin e.ə. IX əsrdə Urartu dövlətinin tərkibinə daxil olması göstərilir. E.ə. VIII-VII əsrlərdə hayların Arme, yaxud armenlərlə birləşməsi və assimilyasiya etməsi nəticəsində erməni xalqı yaranır (9, 16-25).

1980-ci ildə nəşr edilmiş digər «Erməni xalqının tarixi»ndə də e.ə. XIII-XII əsrlərdə armenlərin frako-frigiyalılarla (onlarla qohum tayfalar idi) birgə Balkanlardan Kiçik Asiyaya gəlməsi, sonradan Ermənistan yaylasını (Kiçik Asiyanın şərq hissəsi) tutması göstərilir (10, 27). Göstərilən məlumatlarda ermənilərin məhz Balkanlardan gəlməsi görünür. Bu da onların istər Kiçik Asiyada, istərsə də Cənubi Qafqazdakı torpaq iddialarının əsassız olduğunu sübut edir. Maraq doğuran cəhətlərdən biri də budur ki, hər iki kitab Ermənistan tarixi deyil, erməni xalqının tarixi adlanır və burada ermənilərin tarixi keçmişi ilə bağlı verilən məlumatlar dolaşıqdır. Həmçinin yuxarıdakı faktlardan göründüyü kimi, məlumatlarda xronoloji uyğunsuzluq vardır.

Makedoniyalı İsgəndərin Əhəməni dövlətinin fəthindən sonra (e.ə. 323-cü il) onun imperiyası bölünmüş və 301-ci ildə Solyusiyin (Sələvk) satraplığına daxil edilmiş və e.ə. 189-cu ildə Roma imperiyası tərəfindən işğal edilmişdi.

Lakin e.ə. 220-ci ildə Antiox II Sələvk Ararat çarlığını işğal edərək həmin yerləri Ermənistanın əsas vilayəti ilə (Van gölü ətrafı) birləşdirmiş və «Böyük Ermənistan» ifadəsi də o vaxtdan yaranmışdır (2, .49). Kiçik Ermənistandan başqa bütün erməni vilayətləri Sələvkilərə tabe edilmişdi. Azərbaycan tarixçisi Fəridə Məmmədova «Böyük Ermənistan» ifadəsinin məhz e.ə.220-ci ildə ortaya çıxmasını göstərir və bu ifadənin iki mənada-coğrafi və siyasi mənada işləndiyini qeyd edir (2, 48). Antiox Artaksini (ermənilər onu Artaşes adlandırırlar) Ermənistan strateji təyin edir. Bu sülaləyə mənsub olan çar II Tiqranın (e.ə. 95-55) hakimiyyəti dövründə «Böyük Ermənistan» qüdrətli dövrünü yaşamışdır. II Tiqran Pont çarı IV Mitridad Yevpator ilə ittifaqa girərək, özünün artıq Roma imperiyasının vassalı olmadığını bildirmiş, lakin IV Mitridatın Roma ilə uğursuz müharibələrindən sonra e.ə. 66-cı ildə Roma

sərkərdəsi Pompey Ermənistana yürüş etmiş II Tiqranı Roma imperiyasına tabe etmişdir. Beləliklə, erməni tarixində müstəqil erməni dövləti cəmi 30 il mövcud olmuşdur.

Erməni tarixçilərinin II Tiqranı erməni çarı kimi qələmə verməsini fransız tarixçisi Jorj de Malevil əfsanə adlandıraraq yazır: «Qall sərkərdəsi Versinjetoriksi «fransız generalı» kimi qələmə vermək nə dərəcədə əfsanəvi görünürsə, II Tiqranı «erməni çarı» kimi təqdim etmək də bir o qədər əfsanəvidir» (12, 16).

J.Malevil müasir antropoloji tipə, dinə və danışıq dilinə malik olan erməniləri e.ə. II əsrdə yaşamış ermənilərlə eyniləşdirməyi səhv hesab edərək, erməni etnosunun erkən orta əsrlərdə təşəkkül tapdığını yazır (12, 15-16).

Erməni tarixçiləri Fərat çayından Şərqə doğru ermənilərin yaşadıqları torpaqları Böyük Ermənistan, Fəratdan Qərbə isə ermənilərin yayıldıqları ərazini Kiçik Ermənistan adlandırırlar ki, bununla da onlar Azərbaycan, İran, Türkiyə, hətta Gürcüstan ərazisinə dair iddialar irəli sürmüş olurlar (6, 12).

E.ə. 53-cü ildə Roma sərkərdəsinin Armeniyaya uğursuz yürüşündən sonra Artaşeslər öz hakimiyyətini qısa müddətə bərpa edirlər, lakin e.ə. 36-cı ildə Mark Antoni «Ermənistandan» (Armeniyadan) keçib, onu dağıdaraq İrana hücum etdi. Antoni II Artavazdı öldürtdürdü.

63 il ərzində Ermənistanı (Armeniyanı) ələ keçirmək üçün Roma ilə İran arasında müharibələr getmiş və nəhayət, qarşılıqlı sazişə görə hər iki dövlət Ermənistanı öz nüfuz dairəsində saxlamışdı. Ermənistan Romanın tərkibində qalmış, lakin oranı Parfiya Arşakilər sülaləsinin nümayəndələri idarə etməyə başlamışdı. Sülalənin başçısı İran hökmdarı Vologezin qardaşı Tiridat olmuşdur.

224-cü ildə İranda yeni Sasani sülaləsi hakimiyyəti ələ keçirir, lakin Arşakilər sülaləsi Ermənistanda (Armeniyada) hakimiyyəti Sasanilərə vermək istəməyərək müharibəyə başlayır. Nəhayət, 297-ci ildə Roma imperiyasının köməyi ilə Arşakilər qələbə qazanır.

Erməni mənbələrinə görə 301-ci ildə Ermənistan xristianlığı qəbul etmişdi (9, 63). Lakin, əslində xristianlığı xalq deyil, erməni knyazı Arşaki III Tiridat qəbul etmişdir. III Tiridat 298-330-cu illərdə hakimiyyətdə olmuşdur. Dünya dinlərinin yarandığı ilk gündən cəmiyyətin siyasi sisteminin onlara dayaq olmasına ehtiyacları olmuşdur. Xristianlıq Roma imperiyasında imperator Konstantin tərəfindən (313-cü ildə) rəsmiləşdirilmiş və dövlətin dayağına çevrilmişdir. Beləliklə, dövlətin qüdrəti dinin dövlət ideologiyasına çevrilməsini təmin edə bilər. Lakin dindən dövləti möhkəmləndirmək üçün bir vasitə kimi istifadə etmək də mümkündür. Erməni kilsəsi tarixdə məhz ikinci yolu tutdu. Erməni dövləti ideyasının yaradıcısı erməni kilsəsi oldu.

Erməni mənbələrində xristianlığın Ermənistanda yayılmasını Apostol Faddeyin adı ilə bağlayırlar. Faddeylə yanaşı Varfolomey və Qriqorinin də adları çəkilir (2, 213).

Yuxarıdakı faktlardan göründüyü kimi Ermənistan ərazisində xristianlığın yayılması I əsrdə yaşamış şəxslərin fəaliyyəti ilə bağlanmışdır.

Lakin məlumdur ki, xristianlıq Albaniyada Ermənistandan daha erkən yayılmışdı. Apostollar Faddey və onun şagirdi Yelesey əvvəlcə Albaniyada xristianlığı təbliğ etmişlər. Sadəcə Albaniyada xristianlığın qəbul edilməsi iki mərhələdən keçmişdi. Yelisey «Şimalın bəzi şərq xalqlarını imana gətirir, amma hamısını yox» (1, 20-26).

İkinci mərhələdə isə alban çarı Urnayr maarifçi Qriqorinin sayəsində bu dini yenidən qəbul edir. Ermənilərin isə xristianlığı qəbul etməsi, yəni xaç suyuna salın-

ması Qafqazda deyil, məhz Fərat çayı sahilində baş vermişdi.

«Erməni xalqının tarixi»ndə xristianlığın 301-ci ildə rəsmi qəbul edilməsi maarifçi Qriqorinin adı ilə bağlıdır. Əfsanəyə görə Qriqorinin atası Anak Sasani şahının əmri ilə erməni knyazı I Xosrovu (III Tiridatın babası) ovda öldürmüşdü. I Xosrov ölümündən əvvəl Anakın ailəsinin məhv edilməsini vəsiyyət etmişdi. Qriqori Qeysəriyyəyə qaçır. Bir müddətdən sonra o, Ermənistana qayıdaraq, xristianlığı təbliğ edir. III Tiridat bu xəbəri eşidərək, Qriqorini bütlərə qurban vermək istəyir. Qriqori III Tiridatın bu qərarının əleyhinə çıxır. III Tiridat onu Artaşat şəhərindəki zindana salır. Bu hadisədən sonra III Tiridat dəli olur və Qriqori onu sağaldır. Nəhayət, III Tiridat 190 min tələbəsi ilə xristianlığı qəbul edir (1, 26). Qriqori mənşəcə parfiyalı idi. Ermənistanın Arşaki hökmdarları da fars mənşəli (Bəzi mənbələrdə Arşakilərin türk mənşəli olduğu göstərilir) idilər. Xristianlığın başlanğıc mərhələsində ideoloji birlik mövcud olmuş, lakin sonra müəyyən doqmatik mübahisələr başlamışdı.

Erməni kilsəsinin başçısı-katalikosu Qeysəriyyədə müəyyənləşdirilirdi. Lakin 387-ci ildə erməni katalikosu Qeysəriyyədəki qurultaya gəlmədi. 451-ci ildə Xalkedonda keçirilən kilsə qurultayına da erməni kilsəsinin təmsilçiləri gəlmədilər və Xalkedon qurultayının qərarlarını qəbul etmədilər. Xalkedon qurultayında keşiş Yevtixinin «Xristosa (İsaya) kamil Allah və kamil insan kimi etiqad etmək lazımdır» küfrü lənətləndi və monofizitlərə lənət oxundu (1, 215-216). Ermənilər monofizitlikdə qaldılar. Beləliklə, erməni-qriqoriyan kilsəsi istər Roma, istərsə də Bizans-Yunan kilsələrindən ayrıldı və müstəqil oldu. Bu dövrdə iri siyasi mərkəzlərin yaranması ilə əlaqədar yeni dini mərkəzlər də meydana gəldi. Erməni katalikosatı 485-ci ildə Dvində, 901-ci ildə Anidə, 1147-ci ildə Kilikiyada-Rum qalada mövcud olmuşdu. Kilikiya çarlığındakı katalikosatın 1441-ci ildə Eçmiədzinə (Ücmüədzin) köçürülməsi haqqında qərar qəbul edildi (11, 37-43).Müasir dövrdə iki katalikosat – Eçmiədzin və Antilya katalikosatları mövcuddur. Hal-hazırda kilsənin rolu keçmişdə olduğu kimi çox böyükdür.

Erməni əlifbasının yaranması IV əsrin sonu Y əsrin əvvəlinə aiddir. Əlifbanın yaradılması «ermənilərin atası» hesab edilən Mesrop Maştosun adı ilə bağlıdır. Mənbələrə görə, əlifbanın yaranması 396-399-cu illərə təsadüf edir (13, 25). Bəzi mənbələrdə isə bu hadisənin 406-cı ilə təsadüf etdiyi göstərilir (11, 26). Erməni müəllifi Koryun(Yəsr) «Maştosun həyatı» əsərində Mesropun nəinki ermənilərə, həmçinin alban və gürcülərə də əlifba tərtib etdiyi barədə məllumat verir (13, 25-26). Məşhur Azərbaycan tarixçi və şərqşünası Ziya Bünyadov isə Maştosun nəinki alban və gürcülərə əlifba yaratmadığını, hətta erməni əlifbasının həbəş (amxar) əlifbasından törəndiyini göstərmişdir (1, 212). Lakin məhz erməni əlifbasının yaranması erməni dilində ədəbiyyatın, xüsusilə də kilsə ədəbiyyatının yayılmasına təkan verdi.

1964-cü ildə Erməni katalikosu I Vazgen erməni xalqına müraciətdə yazmışdır: «Erməni xalqının tarixi V əsrdən, erməni əlifbasının yaranması isə Avaray döyüşündən başlamışdır» (11, 38).

387-ci ildə Armeniya ərazisi İran və Roma arasında bölündü. Ermənistanın Şərq hissəsi Sasanilər imperiyasının, qərb hissi isə Romanın tərkibində oldu.

Qərbi Ermənistanın hakimi III Arşakın ölümündən sonra Roma bu əyaləti idarə etmək üçün yeni hakim təyin etmədi. Sasanilər III Xosrovun idarəçiliyindən narazı qalaraq, onu hakimiyyətdən uzaqlaşdırdılar. III Xosrovun qardaşı Vram Çapux hakimiyyətə gətirildi. 428-ci ildə Arşakilərin sonuncu knyazı Artokesin ölümündən sonra Sasani şahı Bəhram yerli feodalların tələbi ilə Ermənistana yeni hakim təyin

etmədi. 438-ci ildən Sasani imperiyasının şahı olan II Yəzdəgird xristianlığa qarşı barışmaz mövqe tutaraq Zaqafqaziyada Məzdəki məzhəbini yaymağa başladı. O, İrandan Zaqafqaziyaya 700 məzdəki kahin göndərdi. Şah Yəzdigird (438-457-ci illər) xristianları Ermənistandan köçürməyə başladı. Buna cavab olaraq, 451-ci ildə ermənilər üsyan qaldırdılar. 451-ci il iyunun 2-də Avaray çölündə iranlılarla üsyançılar arasında məşhur vuruşma oldu. İran qoşunları Şərqi Ermənistanda üsyanı yatırdılar (12, 181). Şah Firuzun eftalitlərlə döyüşdə ölümündən sonra Ermənistan bir müddət müstəqil olur. Ölkəni Vahan Mamikonyan (Mamikonyanlar mənşəcə türk idilər) idarə etməyə başladı. Lakin V.Mamikonyanın ölümündən sonra Şərqi Ermənistan yenidən İrana tabe edildi.

570-ci ildə İranla Bizans arasında başlanan yeni müharibə 591-ci ilə qədər davam etdi və İranın məğlubiyyəti ilə bitdi. 602-ci ildə İranla müharibə yenidən başladı, bu müharibə Şərqi Ermənistanın (Ərməniyyə) Bizans tabeçiliyinə keçməsi ilə nəticələndi. İrandan fərqli olaraq, Bizans Qərbi Ermənistanda (Ərməniyyə) yerli feodalları tamamilə mərkəzi hakimiyyət orqanlarına tabe etmiş, əhalisini isə imperiyanın digər əyalətlərinə köçürtmüşdü.

632-640-cı illərdə ərəblərin Bizansa, o cümlədən Ərməniyyəyə hücumları başlandı. 690-cı ildə xilafət Ermənistanı idarə etmək üçün Aşot Baqratunini hakim təyin etdi. 705-ci ildə sərkərdə Məhəmməd ibn Mərvan Bizansı məğlubiyyətə uğradaraq, Ermənistan ərazisini tamamilə ələ keçirdi.Dvin ərəb canişinlərinin iqamətgahına çevrildi.

Məhz 705-ci ildə ermənilərin katolikosu İlya xəyanətkarcasına xəlifə Əbd əl Malikə məktub yazaraq «Bərdə taxtında oturan indiki Albaniya katalikosu»nun Bizans imperatoru ilə sazişə girdiyini bildirdi (1, 176-177).

Xəlifə Əbd əl Malik cavab məktubunda «bizim hökmranlığımıza (yəni Xilafətə) qarşı qiyam edən albanlar arasında sizin (yəni ermənilərin) dininizə uyğun dəyişiklik edilsin» deyə əmr etdi (1, 176-177). Beləliklə, məhz bu dövrdən etibarən erməni kilsəsi alban kilsəsini özünə tabe edib, qriqoryanlaşdırmağa başlayır.

885-ci ildə xəlifə əl Mütamid yerli feodalların xahişi ilə Əhəd Baqratuniyə (Baqratunilər yəhudi mənşəlidirlər) çar titulunu verdi. Lakin bu heç də canişinliyin ləğvi deyildi. Baqratunilərin hökmranlığı nominal xarakter daşıyırdı. 970-ci ildə Bizans yenidən Ermənistanın qaytarılması uğrunda müharibəyə başlayır. 1020-ci ildən etibarən Bizans ərazisinə türk oğuz tayfaları yürüş edir. 1045-ci ildə Sultan Toğrul Qutalmış başda olmaqla səlcuq qoşunları Gəncə yaxınlığında bizanslıları məğlubiyyətə uğradırlar. 1071-ci ildə Malazgird döyüşündə Bizans qoşunları səlcuqlar tərəfindən ağır məğlubiyyətə uğradılır. Bizans imperatoru Roman Diogen əsir düşür və bütün Ermənistan səlcuqlara tabe olur. Səlcuqların Anadoluya keçmələri üçün artıq heç bir maneə yox idi.

Ermənistan adlanan coğrafi rayon 1157-ci ilə qədər Səlcuq dövlətinin, sonra 1194-cü ilə qədər İraq Səlcuq dövətinin tərkibində idi. Bu ərazi Xarəzmşahlar, Atabəylər, Cəlairilər dövlətinin ərazisinə daxil olaraq adi əyalət kimi qalırdı.

Ermənistan adlanan ərazi 1383-cü ildə Əmir Teymurun yürüşlərindən sonra Teymurilər dövlətinin, 1450-ci ildən isə Ağqoyunlu dövlətinin əyaləti oldu. Səfəvi dövləti yarandığı gündən Ermənistan-Azərbaycan Səfəvi dövlətinin ayrılmaz hissəsi olmuşdur. 1555-ci ilin mayın 29-da Amasiyada Səfəvi-Osmanlı müharibələrinin birinci mərhələsi başa çatdıqdan sonra sülh müqaviləsi imzalandı. Bu sülhə görə Qərbi Gürcüstan, İmeretiya, Meqreliya, Quriya və Qərbi Ermənistan Osmanlı imperiyasının, Gürücüstanın şərq vilayətləri Mesxiya, Kaxetiya, şərqi Ermənistan ərazisi Sə-

fəvilərin əlində qaldı, o cümlədən, Şərqi Anadolu və İraq Osmanlı imeperiyasının tərkibinə daxil oldu.

Beləliklə, yuxarıda verilən qısa tarixi məlumatdan göründüyü kimi, «Erməni dövləti» anlayışı tarixdə mövcud olmayıb. Ermənistan coğrafi rayonunda bir sıra feodalların müxtəlif dövrlərdə kiçik knyazlıqları mövcud olmuşdur.

Kiçik Asiya ərazisində məskunlaşan ermənilər Kilikiya çarlığı adlanan kiçik bir knyazlıqda toplu halında yaşayırdılar.

Bizans imperiyası bəzi adlı-sanlı erməni feodallarına öz ordusunda yüksək vəzifələr verdi. Bizansın getdikcə zəifləməsindən istifadə edən erməni hərbi başçıları üsyan qaldırdılar. Erməni tarixçilərinin fikrincə erməni knyazı Ruben 1080-ci ildə müstəqil Kilikiya çarlığının təməlini qoydu (9, 172). Ermənilər səlibçilərlə sıx əlaqə yaratdılar. Səlib dövlətləri Kilikiya çarlığının mənafelərini müdafiə edirdilər. Səlib dövlətləri ermənilərdən Səlcuqlara və Bizansa qarşı bir vasitə kimi istifadə etmək niyyətində idilər. Alman imperatoru VI Henrix Barbarossa və Roma papası III Selestin Kilikiya knyazı II Levona (1187-1219) çar tacı göndərmişdilər (11, 34). Bu hadisə Kilikiya çarlığının tarixində ən əhəmiyyətli hadisə oldu.

XIII əsrin I yarısında monqollor Anadoluya daxil oldular. Kilikiya çarlığının müstəqilliyini saxlamaq üçün çar Xetum 1247-ci ildə Quyuk, 1253-cü ildə isə Menqu xanla hərbi ittifaq bağladı (11, 34-35). Kilikiya çarlığı monqolların hökmranlığını qəbul etdi. 1260-cı ildə Məmlüklər monqol qoşunlarını məğlub etdilər. 1266-cı ildə Məmlüklər Kilikiyanı işğal edərək, əhalinin bir hissəsini əsir götürüb, Misirə sürgün etdilər. 1341-ci ildə sonuncu Kilikiya çarı V Levonun ölümündən sonra Kilikiya taxt-tacı Kiprdəki fransız şahzadələrinə keçdi (9, 203-204). 1375-ci ildə Məmlüklər Kilikiyanı tamamilə Məmlüklər dövlətinə birləşdirdilər (11, 35). 40 min nəfər əhali Sisdən Alleppoya köçürüldü. Onlar Suriya və Fələstində yaşayan müasir erməni əhalisinin əcdadlarıdırlar. 1516-cı ildə Mərcidəbik və Ribaniyyə döyüşlərində sultan Səlim Məmlüklər dövlətinin mövcudluğuna son qoydu. Osmanlı türkləri 1516-cı ildə tamamilə Kilikiyanı Osmanlı imperiyasına birləşdirdilər (11, 35).

Beləliklə, Kilikiya çarlığının ləğvindən sonra bu torpaqlarda erməni əhalisinin sayı azaldı. Lakin yuxarıdakı faktlardan göründüyü kimi, buna səbəb heç də türklərin buraya gəlişi olmamışdır. 1914-cü ilin rəsmi osmanlı mənbələrində Ədən, Qeysəri və Maroliddə (keçmiş Kilikiya) cəmi 150000 nəfər erməni yaşadığı göstərilmişdir (12, 18). J.De Malevinin qeyd etdiyi kimi, bu rəqəm heç də ermənilərin Türkiyə torpaqlarında «tarixi hüquqlarını bərpa etməyə haqq vermir və ermənilərin təbliğatı əsassız və gülüncdür» (12, 18).

Erməni təbliğatı XIX əsrin sonu XX əsrin əvvəllərində daha da genişlənmiş və ermənilər haqsız olaraq türkləri erməni dövlətinin və əhalisinin məhvində günahlandırmışlar. Onların 3 dənizlə əhatə olunmuş Ədəndən Trabzona, oradan isə Bakıya qədər olan ərazilərdə «Böyük Ermənistan» dövlətini yaratmaq kimi əfsanəvi arzuları erməni kilsəsi tərəfindən nəinki alqışlanmış, hətta əsrlər boyu təbliğ edilərək erməni xalqının şüurunu zəhərləmişdir. Beləliklə, «erməni məsələsi» bu uydurma təbliğatdan törənmişdir, erməni kilsələri isə əsrlərdən bəri «erməni krallığı» ideyasını yaşadan bir təşkilat olmuşdur (5, 24).

## ƏDƏBİYYAT

1. Kalankatuklu Moisey. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı: Elm, 1993, 270 s.
2. Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası (e.ə. III əsr – er. VII əsri). Bakı: Azərnəşr, 1993, 262 s.
3. Gültekin Ural. Tarihin işığında ermeni dosyası. İstanbul: Kamer yayınlar, 1998, 496 s.
4. Krayiblis prof. Nikerland. Rusiyan'nın şark siyaseti və vilayeti şarkiyya meselesi. İstanbul: 1332, 136 s.
5. Süleyman Koçabaş. Ermeni meselesi nedir, ne degildir? Kayseri: vatan yayanları, 1985, s. 24-32.
6. Адонц А. Армения в эпоху Юстиниана. Ереван. 1971, с. 9-14.
7. Геродот. История в девяти книгах. Перевод Г.А.Страновского. М.: Ладомир, 1999, 740 с.
8. Историко-филологический журнал. Ереван: А.Н Арм. ССР, 1971, с.179.
9. История армянского народа. Ереван: Айпетрат, 1951, 291 с.
10. История армянского народа. С древнейших времен до наших дней. Ереван: Айпетрат, 1980, 27 с.
11. Кямуран Гюрюн. Армянское досье. Баку: Язычы, 1993, 372 с.
12. Вердиева Х. Родословная армян и их миграция на Кавказ с Балкан. Баку: Элм, 2003, 168 с.
13. Малевил Ж.. Армянская трагедия 1915 года. Баку: Элм, 1990, 128 с.
14. Seyidova S., Ramazan Uslu. Osmanlı imperiyasının milli münasibətləri-erməni məsələsi XIX əsrin II yarısı-XX əsrin I rübündə. Bakı: Adiloğlu, 2002, 80 s.
15. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövlətinin yaradılması cəhdləri. Bakı, Nurlan, 2007, 248 s.
16. Очерки истории исторической науки в СССР. В 2-т. Т.I, М.: АН СССР, 1955,692 с.
17. Хоренский Моисей. Армянская история. Перевод Н.О.Эмина. М.: 1893, с. 5-6
18. Məmmədli A.A. Ermənilərin gərçək tarixi. Bakı: Elm, 2005, 436 s.
19. Ermeni araştırmaları. Türkiye konqresi bildirileri: II c., Ankara: ASAM-Ermeni araştırmaları ensitüsü yayımı, 2003, 477 s.
20. H.Kundakçı, E.Korgeneral. Emperializmin kullandığı ermeniler. Ankara: Türkiye qazileri vakfı yayınları, 2001, 170 s.
21. Saray Mehmet. Ermenistan və Türk ermeni ilişkileri. Ankara: Özgür Ofset, 2005, 250 s.
22. Şenol Katarcı. Ermeni sonucu pencereden bakamak ya da manzaranın bütününü görmek. T.S.Süleyman Demirel Universiteti yayınları 34, 2005, 242 s.


## О ПРОИСХОЖДЕНИИ АРМЯН И ИХ ИСТОРИЯ


**С.М.СЕИДОВА**


**РЕЗЮМЕ**


В статье на основе источников и исторических фактов излагаются вопросы происхождения и история армянского народа. Рассматривается принятия ими христианства, а также опровергается «миф о великой и независимой» Армении.


## ABOUT THE ORİGİN AND HİSTORY OF ARMENİANS


**S.M.SEYIDOVA**


**SUMMARY**


The article illustrates the questions of the origin and history of the Armenian people, their acceptance of Christianity on the basis of sources and historical facts. «The myth of great and independent» Armenia is disproved.